Ədəbiyyat qəzeti.- 2020.- 14 noyabr. S. 29.

Ədəbiyyat QƏZETİ



Akif AZALP

# Qələbə marşı

*"Əruz həmlələri"ndən*

Hay tövbəsin ağ tuğ ilə etmişdi Tumanyan,
Dərs olmadı, amma qaniçən doymadı qandan!
Əhsən sənə, ey yurduma Ali Baş Komandan,
Qarşında həmin tuğla da diz çökdü Paşinyan!

Artıq Qarabağ ərşinəcən dalğalı bayraq
İlham deyir, İlham deyir, İlham deyir ancaq!

Bir adla qürur duymada millət ilə ümmət,
Bir buyruq üçün müntəzir əsgər ilə səngər!
Bir şanda mücəssəmdi bu gün ar ilə qeyrət,
Bir kamla coşub qürrələnir cümlə nəsillər!

Artıq qalalar bürcünəcən sevdalı bayraq
İlham deyir, İlham deyir, İlham deyir ancaq!

Od ordusu şəhid qanını qoymadı yerdə,
Hər həmlədə "oxqay!" çıxarıb yurd ürəyindən!
Diz çökdürən an rəhmi də bir vergidi mərdə,
Mehriban əməltək gəlir Öndər diləyindən!

Artıq Qarabağ ərşinəcən cilvəli bayraq
İlham deyir, İlham deyir, İlham deyir ancaq!

Sülh sazişi öz əhdini bildirdiyi andan
Təbrik yağır hər ləhzədə sancaq baharından!
Göylər də bütün xalqdakı bu birliyə heyran,
Sən coşquya bax dəhliz alan Nuh diyarından!

Artıq qalalar bürcünəcən işvəli bayraq
İlham deyir, İlham deyir, İlham deyir ancaq!